# Müharibə Hüququnun Fəlsəfi Əsasları

**İmamverdi Novruzlu**
*Hüquqşünaslıq, bakalavr*
*Dövlət Gömrük Komitəsinin Akademiyası*

Açar sözlər: hüquq fəlsəfəsi, müharibə hüququ, Hugo Grotius, Hüqo Qrutso, The law of war

Xülasə

Azərbaycanın hüquq ədəbiyyatında, təəssüflər olsun ki, kifayət qədər tələbatın olduğunu və bu tələbat üçün tələbələrimizin xarici ədəbiyyata üz tutduqları məlumdur. Hüquq sahələrində müəyyən materiallar olmasına baxmayaraq bu bəzən kifayət ola bilmir. Bu sahələrdən biri də müharibə hüququdur. İngiliscə "Law of war" adlandırılsa da, bunun qarşılığı müharibə hüququ olaraq öz əksini tapmaqdadır. Müharibə hüququ yalnız müharibə deyil, eyni zamanda sülh və barışıq zamanı yaranan hüquq və vəzifələri tənzimləyir, müharibə sferasını bir hüquq çərçivəsində fəaliyyətini təmin edir, müəyyən ölçülər irəli sürür. Müharibə hüququ yalnız hüquq sahəsi kimi deyil, hüquq fəlsəfəsinin bir qolu olaraq da inkişaf edir. Müharibə hüququnun fəlsəfi əsasları dedikdə isə, müharibənin yaranması, inkişafı, inteqrasiyası, fəlsəfi mahiyyəti başa düşülür. Ədəbiyyatımızda bu sahə ilə bağlı materiallar kifayət qədər olmasa belə, fəlsəfi düşüncəli hüquqşünaslar bu barədə öz fikirləri ilə çıxış etmişlərdir. Bu şəxslərdən biri də Holland əsilli Hüqo Qrotsidir.

Hüqo XVI və XVII əsrlərdə öz fəaliyyətini davam etdirərək yeni fikir və nəzəriyyələri ilə hüquq fəlsəfəsində bir dönüş yaratmağa nail ola bilmişdir. Təbii hüquq nəzəriyyəsi ilə bağlı fikirləri ilə daha çox tarixdə iz buraxmışdır. Onun fikrinə görə, təbii hüquq nə dövlət, nə də tanrı tərəfindən insana verilmişdir. İnsan hələ totemlərə inandığı zamandan bu hüquqlara sahibdir. Onun mənbəyi insan yaradılışının təbiətidir. Yəni bu aspektlə onun sekulyar fikirlərinin olması göz önündədir. Sekulyarizmə görə, hüquq və ilahilik tamamilə ayrı bir məfhumdur. Məhz bu nəzəriyyə ilə çıxış edən Qrotsi yalnız təbii hüquqla bağlı deyil, eyni zamanda beynəlxalq və müharibə-sülh nəzəriyyələri ilə də öz fikirlərini bildirmişdir. Ona görə, bu prizmaların ayrı mövqeyi olsa da, onlar hər zaman vəhdət şəklində bir bütöv hal ala bilirlər, lakin burada ilahilik istisna ola bilir.

Niderland hüquqşünasının müharibə hüququ ilə bağlı fikirləri digər həmkarları tərəfindən ziddiyyətli qəbul oluna bilsə də, hər zaman diqqət çəkmişdir. Nəzərə almaq lazımdır ki, o bu fikirlərini XVI və XVII əsrlərdə baş verən hadisələrin təəssüratı ilə bildirmişdir.

İlk olaraq, müharibə hüququ barədə fikirləri öyrənməzdən əvvəl hüquqşünasın bu sahə ilə bağlı suallarını cavablandıraq :

Müharibə nədir?

Müharibə dediyimiz anlayış günümüzdə deyil, hətta təbii hüququn yaranması dövrünə təsadüf edir. Həmin zamanlarda insanların arasındakı ibtidai münasibətlərdə belə buna rastlanılmışdır. Müharibə Qrotsinin fikrincə, hər hansı bir problemin zor gücü ilə həllidir. Təbii ki, bu problem özünün tarixi-ictimai şəraitinə görə fərqli istiqamətlərdə ola bilir. Bu müharibə hansı subyektlər arasında olmasından asılı olaraq 3 təsnifata ayrılır: fərdi, kütləvi və karma. Fərdi dedikdə yalnız bir subyektin rifahı naminə meydana gələn problemin həlli üçün başladılan müharibədir. Bu elə də böyük bir nəticə üzrə təsirə malik ola bilmir. Digər təsnifat isə böyük bir kütlənin-millətin rifahı və iradəsi naminə başladılan müharibədir və böyük bir nəticəyə məxsus olur. Karma isə kütlə və fərd arasında meydana gələn müharibədir. Bu zaman, əsasən, kütlənin iradəsi daha üstün tutula bilir. Bunlardan ən qədimi

fərdidir. İnsanlar hələ cəmiyyət formalaşdıran zaman və dövlət olmadığı zaman öz canlarının rifahı naminə müharibə başlatmışlar. Hətta onlara mülk verilməsə belə, öz həyatını qorumaq hüququna malik olduğundan düşmənini öldürə bilmə səlahiyyətinə sahib olmuşdurlar [1].

Müharibə hüququ nədir?

Müharibənin mahiyyətini anladıqdan sonra onun nə üçün bir hüquq sahəsində də mövcud olduğunu artıq anlamaq mümkündür. Müharibə hansı məqsəd və problem üzərində aparılmasına baxmayaraq, onu nizamsız və məhdudsuz düşünmək qeyri-mümkündür. Bu sahə də məhz müharibənin hüquq çərçivəsində məhdudlaşdırılaraq aparılma yollarının tənzimlənməsinə xidmət edir. Bununla kifayətlənməyərək hələ müharibənin olmaması üçün sülh və barışığın olması və hansı şərtlərlə pozula bilməsi ehtiva edilir.

Lakin müharibə başlatmaq üçün əsas şərtlər irəli sürülür. Əks halda bunun heç bir təsirli nəticəsi olmayacaqdır : öz mülkiyyətini qorumaq üçün, yaşamaq hüququnu qorumaq üçün, ədalətsizliyi bərpa etmək məqsədi ilə cəzalandırmaq üçün müharibə başlatmaq.

Artıq bildiyimiz kimi, müharibə müəyyən bir anlaşılmazlıq səbəbi ilə meydana çıxır. Lakin burada müharibəni başladan, Hüqonun fikrincə, hər zaman haqlı olmur. Buna görə də hüquqşünas müharibənin səbəblərini 3 təsnifata ayırır: haqlı, haqsız, şübhəli. Haqlı səbəb də öz xarakterinə görə 3 qrupa ayrılır: Bunlar müdafiə, tənzimetmə və cəzalandırmadır.

Haqsız səbəbin yaranması şəraitini burada müharibənin sadəcə şəxsi maraq üzərində qurulmasından və dövlətlər arasında düşünsək, müəyyən bir ərazi naminə başladığını göstərə bilərik. Bu zaman nəticəsi nə olursa olsun, yalnız bu maraqların heç biri cəmiyyətə gələcəkdə müsbət nəticə verəcəyinə zəmanət vermir.

Haqlı səbəb isə pozulmuş ədalətin bərpa edilməsi üçün başladılan müharibə kimi göstərilir. Dövlət yaranmazdan əvvəl hələ insanlar öz canını və mülkünü başqa bir canlıdan ( heyvan ,insan ) qoruması üçün müharibə başlatmışdır. Bu onun təbii hüququdur. Bu hüquq isə yalnız insana deyil, digər canlılara verilmişdir. Nəzərdə tutulan canlıları isə heyvan, hətta bitki kimi qəbul edə bilərik. İnsan öz mülkünü və canını qorumaq üçün müharibə etmək hüququ təbii hüquq tərəfindən verilmişdir. Amma elə bir hadisə baş verir ki, bu zaman öz həyatı təhlükədə olmamasına baxmayaraq, müharibə edir. Bunun səbəbi isə ədaləti bərpa edib onu yenidən tənzimləməkdir. Çünki pozulmuş ədalət ona da müəyyən təsir göstərəcəkdir. Müharibə eyni zamanda hansısa bir subyekti etdiyi davranışa görə cəzalandırmaq üçün də başladıla bilər. Hüqo cəzaya belə bir tərif vermişdir: “Cəza, pislik edən birinə etdiyi pisliyə görə pislik etməkdir. Cəza cinayətin cavabıdır ”. Cinayətə isə o, ədalətin pozulma səbəbi olduğunu bildirmişdir. Ədalət isə, insanların sahib olduqları arasındakı tarazlıqdır [2]. Lakin Hüqo cəzanı intiqam ilə fərqləndirmiş və onlar arasında böyük bir fərq olduğunu bildirmişdir. Onun fikrincə, intiqam yalnız cəzalandırmaq üçün birinə cəza tətbiq etməkdir. Buradan artıq anlaya bilərik ki, Hüqo sekulyar bir düşüncə ilə cəzaya anlayış vermişdir. Çünki İncil kitabında onun fikrinə zidd fikirlər vardır: ”Düşməni sev!” .”cinayətlərə cinayətlə cavab vermə” və s.

Hüqo eyni zamanda müharibədə kimlərin düşmən ola bilməsini də qeyd etmişdir. Ona görə əgər iki tərəfdən başqa digər bir şəxs və ya dövlət ədalətsiz tərəfə dəstək olursa, o da düşmən sayılır və eyni cəzaya layiq görülür. Burada Hüqo vətəndaşların müharibəyə qarşı vəzifələrini də nəzərə almışdır. Onun fikrincə, əgər müharibə zamanı ədalətsiz tərəfin vətəndaşları vəzifə olaraq mühariəyə qatılmırsa, bu vətənə xəyanət sayılmır. Bu fikir hər zaman ziddiyyət kəsb etmişdir, ədalətsiz olsa belə öz dövlətinin yanında olmaq Hüqonun fikrinə uyğun gəlməməkdədir.

Hüqo eyni zamanda döyüşdə edilməli olan amilləri də qeyd etmişdir:

1. Müəyyən bir məqsəd uğuruna döyüşə başlamaq. Tərəf döyüşə öz şəxsi mənafeyi ilə deyil, ədaləti tənizmləmək uğruna etmək istədiyi məqsədlə başlamalıdır. Hüqo ədalətli tərəfin məqsədi uğuruna hər şeyi edə bilmək hüququnun olduğunu bildirmişdir.

2. Nəticələri əvvəlcədən nəzərə almaq. Müharibə nə ilə sona çatırsa, çatsın, müəyyən bir nəticəsi və təsiri olacaqdır. Lakin bu nəticəni əvvəlcədən nəzərə almaq lazımdır. Əks halda müharibə ədalətsiz bir nəticə ilə sonlana bilər

Hüqo müharibə hüququna yalnız təbii hüquq prizması ilə deyil, eyni zamanda beynəlxalq hüquqdan da istinad etmişdir. Beynəlxalq hüquqa görə də, müharibə mümkündür. Bura da beynəlxalq hüquq kütləvi müharibəni xalqlar arasındakı müharibə kimi dəyərləndirmişdir. Amma bura da gücün hansı tərəfin əlində ol-

ması, onun ədalətli tərəf olmasını bildirmir. Lakin Hüqonun burada rəhbər tutduğu fikir sonlanan müharibənin nəticəsinin bütün bir xalqa məxsus olmasıdır.

Hüqo müharibəni din ilə münasibətini də qeyd etmişdir. Orta Əsr zaman kəsiyində, bildiyimiz kimi, xristianlıq dininin hökm sürdüyü bir sıra dövlətlər mövcud olmuşdur. Lakin Hüqo burada xristianlığın hər kəs tərəfindən qəbul edilən vahid bir din olduğunu inkar edir. Ona görə, xristianlığın digər dinlərə nisbətən üstün bir din olması ağıla batan deyildir. Buna baxmayaraq, bütün dinlər üçün ortaq amillər vardır: Tanrının vahid və tək olması; bilinən və görünən hər şeydən fərqli olması; özündən başqa hər şeyi yaratması və insanın bütün insani münasibətlərindən xəbərdar olması və tənzimləməsi. Qrotsiyə görə, bu amillərə ləkə sürən cəzalandırılmalıdır. Hüqonun bu fikrinə subyektiv düşüncəm olaraq deyə bilərəm ki, burada ilahi hüquq ilə müharibə hüququ arasında bir tendensiya olduğunu özü açıq şəkildə bildirməsə də, etiraf etmişdir. Çünki, müharibə zamanı yaranan münasibətlər tənzim olunarkən mənbəyi olaraq dindən də istinad edilən hallar mövcuddur.

Müharibə zamanı ələ alınan şeylərin nə ola biləcəyini də Hüqo həm təbii, həm də beynəlxalq hüquqdan çıxış edərək fikir bildirmişdir. Təbii hüquqa görə, müharibədə ədalətli tərəf qalib gəldikdə yalnız törətdiyi əməl qədər zərər çəkməlidir. Lakin beynəlxalq hüququ istinad edərkən Hüqo ala biləcək və zərərə salacaqlarının məhdudiyyəti olmadığını deyir.

Müharibə zamanı kimlərin öldürülə biləcəyi və qul ola biləcəyini bildirən Hüqo bəzi qarşıdurmalarla rastlaşmışdır. Bu təbiidir, insanların özünü də heyvan bilən, amma sadəcə onlardan daha üstün hüquqlara sahib olmaqla fərqləndirən Qrotsi hər zaman fikirləri ilə çoxlu özünə rəqib tapa bilmişdir. Onun fikrincə, qalib olan tərəf qarşı tərəfi öldürə bildiyindən, onu qul edə bilmək hüququnun da ola biləcəyini düşünür. Buna mən də razı olmasam belə, o bunu sadəcə hüquqi cəhətdən mümkün olduğunu, amma humanizmə zidd olduğunu bildirmişdir .Amma yenə də burada ola biləcək müharibə dövlətlərin fəaliyyəti nəticəsində meydana çıxmışdır, insanların qula çevrilməsinin bununla bir əlaqəsi yoxdur. Fransız filosofu Jan Jak Russo isə Hüqoya məxsus fikirləri tamamilə inkar edir. Russoya görə, müharibə insanların yaşama hüquqlarını əlindən almağa və məhdudlaşdırmağa bəhanə olmamalıdır [3]. Burada fransız filosofun fikirlərinin daha humanist olması göz önündədir. Qrotsinin fikirlərini inkar etməzdən əvvəl onun sevgi prinsipinin də müharibədə mövcud olduğunu bildirdiyini qeyd etmək istəyirəm. Ona görə, qarşı tərəf rəqib tərəfdə olan qadını, yaşlıyı və əsiri öldürə bilmək hüququna malikdir. Lakin müharibədə bu hüquqların mövcud olmasına baxmayaraq, birinin ölümünə və qul olmasına  səbəb olan hərəkətin bağışlana bilir olmasını söyləmişdir. İnsanın insana qarşı sevgisi müharibənin belə başlamadan bitməsi ilə nəticələnə biləcəyini mümkün edir, yəni hüquqi cəhətdən mümkün olsa da, insanın sevgisi ali tutula bilir. Öldürmənin özü də müəyyən ölçüdə mümkündür. Öldürmə yalnız can və mülkün təhlükəsizliyi üçün aktiv ola bilər. Amma nəzərə alaq ki, Hüqo bunu sadəcə rəy olaraq bildirib. Müharibədə isə tacirlərin və kəndlilərin öldürülməməsi fikri irəli sürülür. Hüqo düşünür ki, əgər bir müharibədə uğurun əldə edilməsi yaxındırsa , düşmən tərəfi yağmalamaq ədalətli hesab olunmur.

Müharibə hüququndan bəhs edərkən söz prinsipini də qeyd etmək lazımdır. Hüqo bu prinsipə çox diqqət yetirmişdir. Onun fikrincə, istəyərəkdən və ya istəməyərəkdən verilməsindən asılı olmayaraq, söz tutulmalıdır. Bu isə əksiksiz olaraq yerinə yetirilməldir. Nəticədə, müharibə hüququnu tənzimləyən qanunları iki əsas başlıq altında qiymətləndirə bilərik: Müharibənin haqlı bir səbəb əsasında başlanması və onun ədalətli bir formada davam etməsi [4].

Amma Qrotsi əgər müharibə ilə sülhün ikisinin də eyni dərəcə mümkün olmasına şərait varsa, sülhü rəhbər tutur. Bu zaman tərəflər ortaq uzlaşmaya gəlir. Lakin sülhün pozulması üçün Hüqo 3 amil irəli sürmüşdür: sülh müqaviləsinin əsas maddələrinə tabe olmamaq; verilən vəzifələrə başdan sovdu yanaşmaq; müqavilədəki hüquqi çərçivədən kənara çıxmaq. Əks təqdirdə, bu sülh pozularsa haqsız səbəb olaraq müharibə başlayacağını bildirmişdir. Bütün bu fikirlərdən aydın olur ki, Hüqo Qrotsi müharibə hüququ ilə bağlı fikirlər irəli sürərkən ilahi hüquqa deyil, təbii və beynəlxalq hüquqdan istinad etmişdir .

Gördüyünüz kimi Hüqo burada bəzi məqamlarda öz təsdiqini tapan, bəzi zamanlarda isə həddən artıq ziddiyyət doğuran fikirlər irəli sürmüşdür. Mənim sevdiyim filosof olsa da,

bəzi məqamları mənim fəlsəfi düşüncələrimlə uzlaşmadı, amma nəticədə bu bir subyektiv fikirdir. Əsas fikirləri nəzərə alsaq, müharibənin ədalətli və humansit olmasını istəyən Hüqo Qrotsi təbii hüququ rəhbər tutaraq müharibə hüququnu belə dəyərləndirmişdir. Zaman keçdikcə bəzi müasir filosoflar bu nəzəriyyələrdən çıxış etsə də, bu fikirləri inkar edən arqumentlər də mövcuddur. Amma mənim fikrimcə, Müharibə hüququnun fəlsəfi prizmadan baxdıqda onun başlamasından çox, necə qarşısı alına biləcəyi ilə bağlı fikirlər daha faydalı olardı. Çünki müharibənin necə olmasından asılı olmayaraq , onun ən yaxşı halı başlamadan bitməsidir. Nə dərəcədə humanist və ədalətli olursa, olsun, burada zor tətbiqindən bəhs olunur, bu isə bizi digər canlılardan fərqləndirən keyfiyyətlərimizi aradan qaldıra bilir. Müharibənin ən yaxşısı onun olmamasıdır. Bunun üçün müxtəlif fikirlərin olması da yalnız bizə müsbət təsir edəcəkdir, nəyin ki olmaması. Artıq müasir dövrümüzdə müharibənin hər cür elementini görürük, çünki nə dərəcə də tənzimlənsə belə, müharibə müharibədir. İtkilər olmasa, sonlanmır. Amma obyektiv yanaşdıqda müharibə özü yeni bir ictimai-siyasi hadisələr doğurur. Buna misal olaraq yeni bir dövlətin yaranması və ya süqutu, hakimiyyətin dəyişməsi, demokratiyanın pozulması və ya bərpası deyə bilərik. Müharibədə itkilərin olmasına humanist fikirlərə tamamilə zidd olsa da, müsbət nəticələri olduğunu düşünənlər də vardır. Bir çox alim və filosoflar isə bu nəticəni müharibə nəticəsində insanların sayı azaldıqca, dünyada olan təbii sərvətlərin və ehtiyatların istifadə olunması və tükənməsinin sürətinin də azalması kimi qiymətləndirir.

İstinad:

1. Yıldırım Torun ,"Hugo Grotius'un hukuk ve siyaset felsefesi",Salmat basım ,Ankara,2015,s.102-125
2. Anıl Çeçen,"Adalet Kavramı",Gündoğan yayınları,Ankara,1993,s.57-58
3. J.J.Rousseau "Toplum Sözleşmesi",Adam yayınları,İstanbul,2001,s.20
4. Kasai Naoya,"The laws of war",A normative Approach to war:Peace,war and justice in Hugo Grotius,Oxford:Clarendon Press;New York:Oxford University Press,1993,s.28-29,s.244

